Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az




# Ermənistan pandemiya dövründə işğal altında saxladığı ərazilərdə "seçki" keçirməklə növbəti dəfə özünü zərbə altında qoydu - Azərbaycanın haqlı mövqeyi gündəmdə...

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**İşğal siyasətinə haqq qazandırmaq üçün Ermənistanın hər dəfə atdığı addımlar sonda onu gülünc duruma salır, diplomatik tənqid hədəfinə çevirir. Azərbaycan ərazilərində yaradılan separatçı rejimdə təşkil edilən "seçkilər" bunun daha bir təsdiqi oldu. İrəvan bununla həm işğalçılıq siyasətindən əl çəkmədiyini bir daha göstərmiş oldu, həm də dünya miqyasında özünü növbəti dəfə biabır etdi.**

Xatırladaq ki, sözügedən məsələyə Prezident İlham Əliyev də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans-müşavirədə geniş şəkildə toxundu. Bu xüsusda dövlət başçısı qeyd etdi: "Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə vuruldu. Bu zərbəni, əslində onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın, demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

Əslində, qeyd edilən reallıq Ermənistanın özünə də yaxşı məlumdur. Amma buna rəğmən, zəbt edilmiş Azərbaycan ərazilərində İrəvan "seçki şousunun" ikinci turunu da təşkil etdi. Artıq məlumdur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan separatçı rejimə Araik Arutyunyan rəhbərlik edəcək. "Seçkilərin ikinci turunda" bu şəxsin "qalib" gəldiyi bildirilir. Daha əvvəl Qarabağda yaradılan qondarma qurumun "baş naziri" olmuş Araik Arutyunyan baş nazir Nikol Paşinyana yaxın adamlardan sayılır. Bununla separatçıların yeni rəhbəri kimi onun Paşinyandan gələn göstərişləri daha çox icra edəcəyi proqnozlaşdırılır. Amma "Qarabağ klanı"nın da bununla asanlıqla barışacağı inandırıcı sayılmır. Hazırda bu fonda Paşinyana qarşı əsas ittiham belə bir "seçki" təşkil etməklə zəbt edilmiş ərazilərdə koronavirus pandemiyasının yayılmasını daha da sürətləndirməsi ilə bağlıdır. Xatırladaq ki, bu məsələyə görə ABŞ-ın "News Blaze" nəşri də İrəvanı sərt şəkildə ittiham edib. "Ermənistan koronavirusu düşüncəsiz şəkildə Dağlıq Qarabağa ötürür" sərlövhəli məqalədə İrəvanın Azərbaycan ərazilərində işğalçılıq siyasətinin davam etməsindən və COVID-19 koronavirusunun Dağlıq Qarabağda yayılmasından danışılır. Bildirilir ki, beynəlxalq birliyin çağırışlarına məhəl qoymayan Ermənistan artıq 30 ildən çoxdur ki, Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ regionunda qeyri-legitim "seçkilər" keçirib. Bundan əvvəl rəsmi İrəvanın virusa yoluxan ermənilərin Dağlıq Qarabağa girişini məhdudlaşdırmağa söz verməsinə baxmayaraq, Ermənistandan 1000 nəfərdən çox adamın işğal olunmuş ərazilərə "seçkiləri müşahidə etmək üçün" getməsinə icazə verilib. Bildirilir ki, seçki dairələrində sosial məsafə saxlamaq qaydaları düşüncəsiz və yolverilməz şəkildə pozulub. Vurğulanır ki, Ermənistan tərəfindən Dağlıq Qarabağda təyin edilmiş məsuliyyətsiz erməni hakimiyyət orqanları və oyuncaq rejimin, koronavirusun daha da yayılması təhlükəsinə baxmayaraq, aprelin 14-nə təyin olunan təkrar "seçkiləri" keçirməsi vəziyyəti daha da pisləşdirir:"Ermənistanda və Azərbaycanın işğal edilmiş ərazilərində COVID-19 pandemiyası səbəbindən aprelin 14-də "prezident seçkiləri"nin ikinci turunun keçirilməsi ilə bağlı qarşıdurma güclənir. Ümid yalnız ona qalırdı ki, İrəvandakı vəzifəli şəxslər cəmiyyətin sağlamlığının və təhlükəsizliyinin gündəlikdə duran hər hansı siyasi məsələnin icrasından daha vacib olmasını nəhayət başa düşəcəklər". Amma reallıq tamam bunun əksini göstərdi. Elə Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması da yaydığı son bəyanatda məsələyə bu prizmadan yanaşır: "Həftələr öncə Azərbaycanın Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının işğal olunmuş ərazilərimizdə koronavirus xəstəliyinin yayılması barədə məlumat verməsinə və tərəfimizdən edilən xəbərdarlıqlara rəğmən, 31 mart 2020-ci il tarixində infeksiya halları gizlədilərək Ermənistanın əlaltısı olan rejim tərəfindən qanunsuz "seçki" şousu keçirildi. Bunun ardınca infeksiyanın yayılmasını Ermənistan etiraf etsə belə, 14 aprel 2020-ci il tarixində yenidən bütün insanların həyatı təhlükəyə atılaraq, "seçki" şousunun ikinci turu da təşkil olundu. Bütün bunlar onu göstərir ki, Dağlıq Qarabağda yaşayan sadə ermənilər Ermənistanın çirkin siyasi oyunları üçün alətdir və oradakı insanların həyatı və sağlamlığı Ermənistanı maraqlandırmır. Ermənistan hakimiyyəti və qondarma rejimin nümayəndələri Qarabağda yaşayan sadə erməni icması üzvlərinin həyatını dəyərsiz sayaraq, onların Azərbaycan vətəndaşları kimi müalicə imkanlarından yararlanmasının qarşısını almaqda davam edir". Yeri gəlmişkən qeyd edək ki, həm Ermənistanda, həm də zəbt edilmiş Azərbaycan ərazilərində koronavirusa yoluxan ermənilərin sayı artır. Rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı artıq 1.111-ə çatıb. Məlumata görə, son sutkada ölkədə virusa 44 yoluxma halı qeydə alınıb. Koronavirusdan daha 1 nəfər ölüb. Beləliklə, pandemiya qurbanlarının sayı 17-yə yüksəlib. Qarabağda da koronavirus sürətlə yayılmaqda davam edir. Ermənistanın "168 jam" qəzeti bu xüsusda yazır:"Dağlıq Qarabağda fövqəladə vəziyyət elan edilib, məqsəd də koronavirusun yayılmasına qarşı durmaqdır. Lakin 14 apreldə keçirilmiş "prezident seçkilərinin" ikinci turu koronavirus təhdidinin burada ciddiyə alınmadığını göstərdi. İddia edilirdi ki, "seçki məntəqələrində" sanitar normalara riayət olunmasını təmin edəcəklər. Amma reallıq bunun əksini göstərdi. Dağlıq Qarabağda koronavirusa ilk yoluxanlar hələ bir neçə gün əvvəl aşkar edilmişdi. İndi onların sayı artır və burada "seçkilərin" də öz rolunu oynayacağı şübhəsizdir. Sosial şəbəkələrdə gedən müzakirələrə görə, Qarabağda yoluxanların sayı 10-u keçir. Reallıqda isə bu göstəricinin daha çox olmasına dair fikirlər səslənir. "Seçkilər" isə yenə erməni cəmiyyətində birmənalı dəyərləndirilməyib. Hətta Ermənistandan gələn müşahidəçilər də "seçkilərin" ədalətli keçməsini şübhə altına alan pozuntular haqda danışıblar". Burada bir məsələni də qeyd edək ki, elə beynəlxalq ictimaiyyət də yenidən Qarabağda keçirilən qondarma "prezident seçkiləri"nin ikinci turunu tənqid edib. Məsələn, Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Cao Licien Qarabağda aprelin 14-də keçirilən qondarma "prezident seçkiləri" ilə əlaqədar Çin tərəfinin mövqeyi haqqında sualını şərh edərək söyləyib: "Dağlıq Qarabağ məsələsi barədə Çin tərəfinin mövqeyi qəti və dəyişməzdir. Çin ümid edir ki, əlaqədar tərəflər regionda sülhü və sabitliyi qorumaq üçün mübahisəli məsələləri siyasi dialoq yolu ilə nizamlayacaqlar. Çin tərəfi regionun sabit inkişafı üçün səy göstərməyə hazırdır". Qeyd edək ki, Çin, əvvəlkitək, bu münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi də ikinci turu aprel ayının 14-də baş tutan Dağlıq Qarabağdakı qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb. Səfirliyin bəyanatında deyilir: "Böyük Britaniya ikinci turu aprel ayının 14-də baş tutan Dağlıq Qarabağdakı "prezident seçkilərini" tanımır. Böyük Britaniya bir daha ATƏT-in Minsk Qrupu və onun həmsədrlərinin sülh prosesindəki rolunu dəstəklədiyini vurğulayır. Biz beynəlxalq hüququn bütün dünyada tanınan prinsip və normalarının əhəmiyyətini vurğulamaqla bərabər, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyirik. Biz Azərbaycan və Ermənistanı münaqişənin sülh yolu ilə həll olunması və etimadın yaradılması üçün səylərini sürətləndirməyə çağırırıq".

Gürcüstan da qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımadığını növbəti dəfə açıqlayıb. Gürcüstan Xarici İşlər Nazirliyindən bu xüsusda bildirilib ki, Tiflis Azərbaycanın bu bölgəsində keçirilən qondarma "prezident seçkiləri"nin ikinci mərhələsini də tanımır:"Gürcüstan Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü dəstəkləyir, həmçinin münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həllini dəstəkləyir". Eyni mövqedən çıxış edən ölkələrin çoxluğu bir daha Ermənistanın işğal siyasətinin beynəlxalq miqyasda qəbul edilmədiyini göstərir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**